

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 noyabr 2025-ci il №85 (2994) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad olunmasının ildönümü ilə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcərin işğaldan azad olunmasının 5-ci ildönümü ilə bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda "Zəfər Tariximiz: 25 Noyabr 2020-ci il Kəlbəcər" sözləri yer alıb.

## İstismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatları məhv ediləcək

Noyabrın 24-dən 28-dək Pirəkəşkül qəsəbəsi yaxınlığındakı poliqonda, həmçinin Ağdərə rayonu ərazisindəki təlim mərkəzində istismar müddəti başa çatmış və istifadəyə yararsız olan döyüş sursatlarının təhlükəsizlik qaydalarına riayət olunmaqla məhv edilməsi prosesi həyata keçiriləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Nazirlik partlayış səsləri ilə əlaqədar əhalini təşvişə düşməməyə çağırır və narahatlığa heç bir əsas olmadığını diqqətə çatdırır.

## Ötən həftə 234 mina və 2 min 464 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən noyabrın 17-dən 23-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən yarım ayda Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 199, tank əleyhinə 35 mina və 2 min 464 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 1527,4 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

### *25 Noyabr - Kəlbəcər Şəhəri Günü*

# Dağlar diyarının yeni həyatı

*2020-ci il noyabrın 25-i Azərbaycan tarixinə Kəlbəcərin erməni işğalından azad edildiyi gün kimi yazılıb. Üçtərəfli Bəyanata əsasən, həmin gün Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi bir güllə atılmadan Azərbaycana təhvil verilib.*



AZƏRTAC xatırladır ki, Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən, noyabrın 25-i Kəlbəcər Şəhəri Günü kimi qeyd olunur.

**Qalalar, qalaçalar, mağaralar, kahalar məskəni**

Kəlbəcər Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Bu ərazidə ibtidai insanın təşəkkül tapması və formalaşması dördüncü geoloji dövrlə bağlıdır. Bu dövr isə 4 milyon ildən artıq bir tarix deməkdir. Qədim tarixə malik Kəlbəcər ərazisində alban dövrünə aid çoxlu abidələr var. Bağlıpəyə kəndi yaxınlığında yerləşən Xudavəng kompleksi Ağdərə-Kəlbəcər avtomobil yolunun üzərində inşa edilib. Tarixi mənbələrə əsasən, VI-VII əsrlərdə alban knyazı tərəfindən tikilmiş kompleks XV əsrdə həmin knyazlığın dini məbədi olub. Sonralar məbəd bir neçə dəfə təmir edilib və yenidən qurulub. Nəhayət, məbədin sonuncu dəfə alban hökmdarı Həsən Cəlal tərəfindən yenidən inşa edildiyi deyilir. Həsən Cəlalın (1215-1261) həyat yoldaşı Minə Xatun bu məbəddə dəfn olunub.

Dağlar diyarında digər qədim alban abidələri - Laçın kəndində "Laçınqaya" qalası, Lev kəndində "Lev" kilsəsi, Qaraçanlı kəndində "Uluxan" qalası, Başlıbel kəndində "Aşağı qalaça" və "Yuxarı qalaça", Çərəkdar kəndində "Həsən Camal" kilsəsi, Qanlıkənddə "Lök" qalası, "Qalaboynu" və "Comərd" qalaları da var.

**Hər daşında tarix yatır...**

Rayondakı "Soltan Heydər", "Qurbağalı çay", "Turşsu", "Ayı çınqılı", "Gəlin qayası", "Böyük dəvəgözü", "Sərçəli" rayonun ən iri və ən ucqar yaşayış məntəqəsi sayılan Başlıbel kəndindəki "Aşağı qalaça", "Yuxarı qalaça", "Nəbinin kahası" adlanan yerlərdəki qayaüstü təsvirlər bu ərazilərin qədim tarixə malik insan məskənləri olduğunu sübut edir.

Sal daşlar üzərindəki təsvirlərdə ocaq başında oturmuş insan rəsmləri, əmək alətlərinin, ov səhnələrinin, qədim xalq oyunlarının təsvirləri Kəlbəcərin tarix və mədəniyyətinin qədimliyini özündə əks etdirir. Rayonun bir çox ərazilərində, o cümlədən Kəlbəcər şəhərində, Başlıbel və Otaqlı kəndlərində qədim tarixə malik məscidlər və su dəyirmanları da öz mövcudluğunu işğaladək qoruyub saxlayırdı. Təəssüf ki, erməni vəhşiliyi nəticəsində həmin abidələr tanınmaz hala düşüb.

(Ardı 2-ci səhifədə)

## Sizi ölməzliyə Vətən uğurladı

Hərbi Memorial Məzarlıqda monumental bir abidə var. Şəhidliyə dövlət səviyyəsində ehtiramın abidəsidi. Məzarlıqda müharibənin hər gününün döyüşlərini, döyüşlərin qələbə sonluqlarını əks etdirən lövhələr var...

**Tarix olmuşların yaddaşıdı...**

Böyük dünyaya gətirən yolların başlanğıcı qədim insan məskənlərinin cığırlarıdı. Dövlətlər yarandı, araya sərhədlər düşdü. Bəzən əraziyə görə sərhədlərin bu üzü o üzünə, o üzü bu üzünə yağı kəsilirdi. İlk döyüşlər belə başladı. Dövlətlər həm ərazisini qorumaq üçün, həm də ərazisinə ərazi qatmaq üçün ordu yaratdı. Döyüşlər böyüdü, genişləndi. Müharibələr başladı - ordular qarşı-qarşıya gəldi...

Hər dövrün öz müharibəsi olub...

Azərbaycanı dövlətlərinin sabahlarının işığı bildiyi sərhədlərini od kimi, ocaq kimi, ruh kimi qoruyan döyüşçülərin nəfəsi isindirib...

(Ardı 5-ci səhifədə)

## “Əsgərlərimizin sağlam olmaları üçün bütün bacarığımızı səfərbər edirik”

"Sağlamlıq hər şey deyil, amma sağlamlıq olmasa, hər şey heç nədir". Bu sözlərin mənasını düşündükcə anlayırsan ki, həyatımızın hər anında sağlamlığımızın qayğısına qalmalıyıq. Çünki sağlamlıq insanın yaşamasını təmin edən əsas şərtdir. Bu baxımdan hərbçilərimizin də sağlamlığı əhəmiyyətli məsələlərdəndir. Çünki onlar gecə-gündüz, isti-soyuq demədən Vətənimizin keşiyini çəkir, onun suverenliyini, ərazi bütövlüyünü və təhlükəsizliyini qoruyurlar. Komandanlıq tərəfindən isə şəxsi heyətin sağlamlığına daim ciddi nəzarət edilir. Sevindirici haldır ki, bu gün Vətən müdafiəçilərimizin xidmət etdiyi hərbi hissələrdə müasir tibbi avadanlıqlarla təchiz edilmiş tibb məntəqələri fəaliyyət göstərir. Burada çalışanlar mövcud imkanlardan istifadə edərək hərbi qulluqçularımıza yüksək səviyyədə tibbi xidmət göstərirlər.

"N" hərbi hissəsində şəxsi heyətin sağlamlığının keşiyində dayanan tibb işçiləri ilə görüşdük.

(Ardı 6-cı səhifədə)

# Dağlar diyarının yeni həyatı



(Əvvəli 1-ci səhifədə)

Qədim şəhər mədəniyyətini özündə əks etdirən Keştək, Tirkeşəvənd, Başlıbel kəndlərində və Tərtər vadisi boyu ərazilərdəki qalalar tarixin müxtəlif dönəmlərindən indiyədək ulularımızın keçdikləri həyat yoluna işıq saçır. İstisu qəsəbəsində, Başlıbel, Qalaboynu, Qamışlı, Lev, Çovdar, Şahkərəm, Milli, Məmmədsəfi, Şurtan kəndlərində xristian və islam mədəniyyətinə aid nişanələr hələ də qalır.

Rayonun Zar kəndinin ərazisi qədim insan düşərgəsi olmaqla yanaşı, həm də şəhər mədəniyyətini özündə əks etdirir. Hələ ötən əsrin 60-80-ci illərində burada təsərrüfat işləri və tikinti işləri üçün aparılan qazıntılar nəticəsində üç-dörd təbəqəli qəbirlər aşkarlanıb. Qəbirlərdən tuncdan və bürüncdən hazırlanmış zinət əşyaları, dulusçuluq məmulatları tapılmış, həmin materiallar Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyinə verilmişdi. Şəhri-Zar kimi tanınan həmin tarixi ərazi, sözün əsl mənasında, qədim şəhər mədəniyyətinə məxsus nümunələrlə zəngindir. Buradakı "Daş dirəkli dam" sanki həmin mədəniyyətin şah əsəri hesab olunurdu. Təəssüf ki, işğal dövründə digər tarixi abidələr kimi, "Daş dirəkli dam" da Ermənistan silahlı qüvvələri tərəfindən barbarcasına dağıdılaraq talan edilib.

### Canlı təbiət muzeyi

Uca zirvələri buludlara baş çəkən, sıldırım qayaları, gur şəlalələri, buz kimi soyuq çeşmələri, ətrafa yaşıl don biçən zümrüd meşələri, təkrarsız təbiət mənzərələri ilə heyrətləndirən Kəlbəcər başdan-başa canlı təbiət muzeyini xatırladır. Dağlıq relyefə malik olan rayon mineral su qaynaqları, axar çaylar və faydalı qazıntılarla zəngindir. Dağlar qoynunda yerləşən Kəlbəcəri başdan-başa gülüstan adlandırmaq olar. Otuz mindən artıq bulağı olan Kəlbəcər rayonunun "təbiət muzeyi" adlandırılması təsadüfi deyil. Rayon ərazisində 4 mindən artıq bitki növü bitir və onlardan 200-ü dərman bitkisidir.

### İşğal dövrünün izləri

1993-cü il aprelin 2-də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən Kəlbəcərdə 53 min 340 sakin öz dədə-baba yurdundan qovulub, 511 dinc sakin öldürülüb, 321 nəfər əsir və itkin düşüb. Rayonun məcburi köçkün əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşıb.

Kəlbəcər rayonunun 484 şəhidi var. Onlardan 258-i hərbçi, 226-sı mülki şəxsdir. Vətən müharibəsində rayonun 37 sakini şəhid olub. Kəlbəcərdən olan 3 döyüşçü “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb.

Düşmən tərəfindən işğal nəticəsində rayonun bütün yaşayış məntəqələri, 13 minədək fərdi mənzil, 87 tarixi abidə, 1 muzey, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibb məntəqəsi, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, çoxlu sayda texnika talan edilib, dağıdılıb və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınıb. Rayona 761 milyon ABŞ dolları məbləğində ziyan dəyib.

Dağıntı və talanlar həm işğal dövrü ilə yanaşı, həm də beş il əvvəl ermənilər rayondan çıxarkən davam edib. Bütün binalar dağıdılıb, yandırılıb, sökülüb. Ağaclar kəsilib, meşələrə od vurulub.

### Altı zər, üstü zər Kəlbəcər…

Kəlbəcərin bir özəlliyi də onun loğman təbiəti, təmiz havası və şəfalı su mənbələrinin olmasıdır. Həzm sistemi xəstəliklərinin əvəzsiz müalicəsi hesab olunan zəngin mineral tərkibə malik olan İstisu müalicə ocağı burada yerləşir. İstisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ zamanı yerin qabarması, çatlaması nəticəsində əmələ gəlib. İstisu mineral suları hipertermal, karbon qazlı, hidrokarbonatlı-xloridli-sulfatlı-natriumludur və daim çağlayan 12 bulaqdan ibarətdir. İstisuyu yerin təkindən 58,8 dərəcə Selsi istiliyində qaynayır. Mineralların sayı 6,7 qrama çatan 1 litr suyun tərkibi göstərir ki, litium, brom, yod, mərgümüş, fosfor, sink, med, nikel, maqnezium, dəmir və s. kimyəvi maddələrlə zəngindir. Ərazidəki bulaqlardan biri 8 metrədək hündürlükdə fəvvarə vurur. Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Mozçay, Bağırsaq, Qotursu kimi çox böyük müalicə - balneoloji təsirə malik mineral su yataqları Kəlbəcərə dünya şöhrəti qazandırıb. İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə xüsusilə fərqlənir. Onun suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkündür.

"İstisu" İstirahət-Müalicə Kompleksinin 34 hektar ərazidə salınması və gündəlik 300 nəfəri qəbul etməsi üçün inşaat işləri gedir. Kompleksdə sağlamlıq-bərpa mərkəzi ilə yanaşı, 10 kottec də tikilir.







### Sakinlər doğma yurda dönürlər

İşğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Kəlbəcərdə də genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Bu il avqustun 20-dən etibarən Kəlbəcər şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı başlanıb. Böyük Qayıdış prosesinin növbəti əlamətdar hadisəsi kimi, Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Kəlbəcər şəhərinə köçən sakinlərlə görüşmüş, onlara yeni mənzillərin açarlarını təqdim ediblər.

Həmin mərasim zamanı Prezident İlham Əliyev deyib: "Dövlət sizin üçün burada gözəl şərait yaradıb. Kəlbəcər şəhəri indi dünyanın ən gözəl mənzərəli şəhərlərindən birinə çevrilir. Siz artıq birinci yaşayış kompleksində evlərlə təmin olunursunuz, amma inşaat işləri bununla bitmir. Bu gün təməlini qoyduğum növbəti yaşayış komplekslərində yaxın gələcəkdə sizin qohumlarınız, dostlarınız gəlib yerləşəcək. Birinci mərhələdə "Böyük Qayıdış" Proqramı çərçivəsində Kəlbəcər şəhərində dörd yaşayış kompleksinin inşası nəzərdə tutulur və bu binalarda 10 mindən çox insan yaşayacaq. Təbii ki, lazım olan bütün digər infrastruktur layihələri də icra edilibdir. İşıq, su, təbii qaz çəkilib, yollar salınıb, minalardan təmizləmə işi aparılıb. İndi Kəlbəcər şəhərində gözəl məktəb tikilir və gələn il istifadəyə veriləcək. Ancaq builki dərs ilini kəlbəcərli uşaqlar modul tipli məktəbdə oxuyacaqlar.

Bu gün, o cümlədən ona görə tarixi bir gündür ki, ölkəmizin ən böyük rayonu olan Kəlbəcər və onun şəhəri artıq canlanır, buraya həyat qayıdır və əminəm ki, siz burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz. Uzun illər ərzində ağır şəraitdə - çadırlarda, uyğunlaşdırılmış binalarda, uşaq bağçalarında, yataqxanalarda - müxtəlif yerlərdə yaşamısınız, həyatınız çox ağır olub".

### Yenidən tikilən, yenidən qurulan Kəlbəcər

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mayın 28-də Kəlbəcər-Laçın avtomobil yolunda görülən tikinti işləri ilə tanış olublar.

Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Kəlbəcərə ilk səfərləri çərçivəsində "Kəlbəcər" yarımstansiyasının açılışında iştirak ediblər. Dövlət başçısı Lev çayı üzərində su elektrik stansiyasının tikintisi ilə tanış olub, Kəlbəcər-Laçın avtomobil yolu üzərində yaradılacaq 3,4 kilometr uzunluğundakı tunelin təməlini qoyub.




Dövlət başçısının tapşırığına əsasən, aparılan quruculuq işləri çərçivəsində rayonda "Kəlbəcər-1", "Meydan", "Qamışlı", "Soyuqbulaq", "Çıraq-1", "Çıraq-2", "Zar" Kiçik Su Elektrik stansiyaları (KSES), həmçinin "Yuxarı Vəng" Su Elektrik Stansiyası, habelə 11035 kV-luq "İstisu" yarımstansiyası, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı Vəng kəndində "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" Kiçik Su Elektrik stansiyaları istismara verilib.

Dövlət başçısı Yanşaq, Zallar və Zar kəndlərinin, habelə İstisu qəsəbəsinin, Kəlbəcər şəhərində birinci və ikinci yaşayış komplekslərinin, inzibati binanın və məktəb binasının təməlləri qoyulması, "İstisu" mineral su zavodunun açılış mərasimlərində iştirak edib.

Avqustun 21-də Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda görülən işlərlə tanış olublar. Onlar Kəlbəcər şəhərində 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak edib, şəhərdəki 1-ci yaşayış kompleksinin ərazisində fərdi və çoxmərtəbəli evlərdə yaradılan şəraitlə tanış olub, buraya köçən sakinlərlə görüşüblər. Həmin gün Prezident İlham Əliyev "Balland-Kəlbəcər balı, arı və arıçılıq məhsulları mağazası"nın açılışında iştirak edib, Kəlbəcər şəhərində 3-cü yaşayış kompleksinin və şəhər parkının təməlini qoyub.

Rayonda aparılan nəhəng quruculuq işləri dağlar diyarının gözəl gələcəyindən, azad olunmuş ərazilərə "Böyük Qayıdış"ın uğurlu perspektivindən xəbər verir. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfərdən sonra işğaldan azad edilmiş regionların iqtisadiyyata reinteqrasiyası ölkəmizin inklüziv və dayanıqlı inkişafı üçün yeni üfüqlər açır.

# HDQ-də "Konstitusiya və Suverenlik İli" ilə bağlı tədbirlər keçirilib

*Cari ilin hazırlıq planına əsasən, "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Hərbi Dəniz Qüvvələrində (HDQ) silsilə tədbirlər keçirilib.*





Tədbirlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, həmçinin Vətən uğrunda şəhid olan vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixində imzaladığı Sərəncamla 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunmasının əhəmiyyəti barədə danışıblar. Bu Sərəncamın hüquqi, siyasi və ictimai baxımdan böyük əhəmiyyət daşıdığı və ölkəmizin inkişafında həlledici rol oynadığı vurğulanıb.

Silsilə tədbirlərdə, həmçinin Ali Baş Komandanın rəhbərliyi ilə ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərdən, Qələbənin qazanılmasında xalqımızın əvəzsiz rolundan, igid oğullarımızın şücaətlərindən söz açılıb, şəhidlərimizin xatirəsinin daim yaşayacağı əminliklə bildirilib. Azad edilmiş torpaqlarımızda görülmüş abadlıq-quruculuq işlərinin və Böyük Qayıdışın dövlətimizin və xalqımızın Vətən torpaqlarına verdiyi dəyərin göstəricisi olduğu diqqətə çatdırılıb.



## Hərbi attaşelər Milli Aviasiya Akademiyasını ziyarət ediblər



Cari ilin fəaliyyət planına əsasən, ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri üçün Milli Aviasiya Akademiyasına ziyarət təşkil edilib.

Müdafiə Nazirliyi xəbər verir ki, ziyarətdə 14 ölkənin hərbi attaşelik aparatının 17 nümayəndəsi iştirak edib.

Əvvəlcə qonaqlara Milli Aviasiya Akademiyasının yaranma tarixi, inkişaf mərhələləri, strukturu və fəaliyyəti barədə ətraflı məlumatlar verilib.

Qeyd olunub ki, ötən əsrin sonlarından fəaliyyətə başlayan Milli Aviasiya Akademiyası ölkəmizin mülki aviasiya sahəsinin ixtisaslı kadrlarla təminatında mühüm rol oynayır. Akademiyada bu gün bakalavriat və magistratura səviyyələrində 3 mindən çox tələbə təhsil alır.

Qonaqlara təhsil ocağında aviasiya sahəsində böyük təcrübəyə malik peşəkar pilotların, dispetçerlərin, mühəndislərin və ixtisaslaşmış mütəxəssislərin tədris və təlimlərdə iştirakı barədə məlumat verilib. Eyni zamanda, Akademiyada elmi tədqiqatlar, mühəndislərin və tələbələrin yaradıcılıq fəaliyyəti haqqında məlumat təqdim olunub.

Daha sonra hərbi attaşeləri maraqlandıran suallar cavablandırılıb.

Ziyarət çərçivəsində qonaqlar Akademiyanın Təlim Mərkəzində uçuşları tam imitasiya edən simulyatorların işini müşahidə ediblər. Həmçinin hərbi attaşelər təhsil müəssisəsinin ərazisində, Elm-İstehsalat Birliyində, Aviasiya Tarixi Muzeyində, kitabxanada, laboratoriyalarda, idman kompleksində və tədris korpuslarındakı auditoriyalarda olub, tələbələrlə keçirilən tədris prosesini izləyiblər.

Sonda birgə xatirə şəkli çəkilib.

## Beynəlxalq Hərbi İdman Şurasının Avropa konfransı keçirilib

Almaniya Federativ Respublikasının Berlin şəhərində 37 ölkənin nümayəndə heyətlərinin rəhbərlərinin və üzvlərinin iştirakı ilə Beynəlxalq Hərbi İdman Şurasının (CISM) Avropa konfransı keçirilib.

Rəsmi açılış mərasimi Julius-Leber-Barracks hərbi şəhərciyində təşkil olunan konfransda ölkəmizi Mərkəzi Ordu İdman Klubunun (MOİK) rəisi Vüqar Əsgərov təmsil edib.

Konfrans çərçivəsində beynəlxalq hərbi idmanın inkişafına dair perspektiv planlar müzakirə olunub, iştirakçı dövlətlər arasında təcrübə mübadiləsi aparılıb.

Həmçinin CISM-in Avropa üzrə vitse-prezidentinin, müxtəlif dövlətlərin İcraiyyə Komitəsi üzvlərinin hesabatları, CISM-in Baş katibinin təşkilatın cari vəziyyəti və inkişaf istiqamətləri, idman komissiyalarının idman növlərinin strateji inkişafı və beynəlxalq yarışların planlaşdırılması barədə məruzələri dinlənilib.

Eyni zamanda, bir sıra ölkələrin nümayəndələri gələcəkdə nəzərdə tutulan idman tədbirlərinin keçirilməsi ilə bağlı təkliflərini təqdim edib, hərbi idman təşkilatları arasında əlaqələndirmə məsələləri, tədbirlər təqviminin yenilənməsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində müzakirələr aparılıb.

Tədbirin növbəti günündə nümayəndə heyətləri üçün Berlin şəhərinin tarixi yerlərinə ziyarət təşkil olunub.



Dünya, qitələrarası və regional səviyyədə yarışlar keçirən dünyanın ən böyük idman təşkilatlarından biri olan CISM-in hazırda Afrika qitəsindən 47, Amerika qitəsindən 19, Asiya qitəsindən 33 və Avropa qitəsindən 42 ölkə olmaqla, ümumilikdə 141 üzvü vardır. Burada 25 idman növü fəaliyyət göstərir və şura tərəfindən hər il müxtəlif idman növləri üzrə hərbçilər arasında idman tədbirləri və yarışlar keçirilir.

Qeyd edək ki, Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubu 1995-ci ildən CISM-in fəal üzvüdür. Azərbaycan Ordusunun hərbi qulluqçuları həmin təşkilat tərəfindən keçirilən dünya və Avropa çempionatlarında uğurla çıxış edirlər.

**"Azərbaycan Ordusu"**

## Zabitlərin dinc dövrdə həqiqi hərbi xidmət müddəti azaldılır

Ehtiyatdan müddətli həqiqi hərbi xidmətə çağırılan və ya bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olan zabitlərin dinc dövrdə həqiqi hərbi xidmət müddəti 6 ay azaldılacaq.

AZƏRTAC xəbər verir ki, bununla bağlı məsələlər Milli Məclisin noyabrın 25-də keçirilən plenar iclasının gündəliyinə daxil edilib.

Qüvvədə olan qanuna görə, dinc dövrdə həqiqi hərbi xidmətin müddəti ehtiyatdan həqiqi hərbi xidmətə çağırılanlar və ya könüllü daxil olan zabitlər üçün 1 il 6 ay, bağlaşma üzrə həqiqi hərbi xidmətə könüllü daxil olan zabitlər üçün 3 ilə qədərdir.

Sənədə əsasən, ehtiyatdan müddətli həqiqi hərbi xidmətə çağırılanlar və ya bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar üçün bu müddət 1 il (bu müddət bitdikdən sonra tərəflərin razılığı ilə onlar kadr zabit heyətinə keçirilirlər), bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün bu müddət 3 ilədək (bu müddət bitdikdən sonra tərəflərin razılığı ilə yeni bağlaşma bağlanılır) olacaq.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə qoyularaq birinci oxunuşda qəbul edilib.

## Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında iqtisadi körpü kimi unikal mövqedədir

Azərbaycan Cənubi Qafqaz ilə Mərkəzi Asiya ölkələri arasında nəqliyyat və iqtisadi körpü kimi unikal mövqedə durur.

Bu fikri AZƏRTAC-ın "Azərbaycan və dünya" proqramının növbəti buraxılışında politoloq Samson Katsman səsləndirib. O qeyd edib ki, ABŞ xüsusilə də texnoloji əməkdaşlıqla birgə Azərbaycanın bu mövqeyindən regional sabitliyin və iqtisadi inkişafın gücləndirilməsi üçün istifadə edə bilər.

Politoloq vurğulayıb ki, Ukraynadakı müharibə və İranın təsiri də daxil olmaqla, hazırkı qeyri-sabitlik yaradan amillər həllik imkanları məhdudlaşdırır, lakin beynəlxalq vəziyyətin yaxşılaşdığı təqdirdə regionun perspektivləri kifayət qədər müsbət ola bilər.

S.Katsman, həmçinin Cənubi Qafqazda əməkdaşlığın daha da inkişafına və sabitliyin möhkəmlənməsinə ümid etdiyini bildirib. O vurğulayıb ki, region kommunikasiya xətlərinin açılmasına və beynəlxalq tərəfdaşların fəal dəstəyinə ehtiyac duyur.

## Hərbi İdarəetmə İnstitutunun dinləyiciləri Fövqəladə Hallar Nazirliyinin hərbi hissəsini ziyarət ediblər





Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunun "Strateji araşdırmalar və dövlət müdafiəsi idarəetmə akademik kursu"nun dinləyiciləri tədris proqramına uyğun olaraq Fövqəladə Hallar Nazirliyinin hərbi hissəsini ziyarət ediblər.

Milli Müdafiə Universiteti xəbər verir ki, ziyarətin əsas məqsədi dinləyicilərin dövlət müdafiəsi sisteminin tərkib hissəsi olan "Fövqəladə hallar və mülki müdafiə" ilə yaxından tanışlığı, fövqəladə hallar sahəsində idarəetmə, təhlükəsizlik, operativ qərarvermə və müasir əməliyyat imkanları barədə praktiki biliklərinin artırılması olub.

Görüş zamanı dinləyicilərə hərbi hissənin fəaliyyəti, şəxsi heyətin hazırlıq səviyyəsi, müasir xilasetmə və fövqəladə vəziyyətlərə reaksiya imkanları barədə ətraflı məlumat verilib. Həmçinin xüsusi texnikalar, avadanlıqlar və qüvvələrin əməliyyat hazırlığı nümayiş etdirilib.

Tədbir çərçivəsində qarşılıqlı fikir mübadiləsi aparılıb, dinləyicilərin sualları cavablandırılıb və xatirə şəkilləri çəkilib.

## MMU-da Gürcüstan nümayəndə heyəti ilə görüş keçirilib



Noyabrın 24-də Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Hərbi İdarəetmə İnstitutunda Gürcüstan Müdafiə Nazirliyinin "Müdafiə İnstitutlarının Qurulması Məktəbi"nin (DIBS) rəhbər heyəti ilə görüş keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüşün məqsədi Azərbaycan və Gürcüstan respublikaları Müdafiə nazirlikləri arasındakı "Müdafiə və Təhlükəsizlik üzrə Strateji Proqram" çərçivəsində təhsil üzrə ekspertlərlə görüşmək, həmçinin Azərbaycanın təhlükəsizlik, müdafiə siyasəti ilə tanış olmaq olub.

Nümayəndə heyətinə təqdim olunan brifinqdə İnstitutun yaranma tarixi, missiyası, tədris strukturu, tədris proqramları və təhsil istiqamətləri barədə ətraflı məlumat verilib, eləcə də qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

Daha sonra nümayəndələrin tədris imkanlarını yaxından tanıması üçün təhsil gəzintisi təşkil olunub və Azərbaycan Ordusunda hərbi təhsil sahəsində aparılan islahatlar və tətbiq olunan yeniliklər barədə məlumat çatdırılıb.

Sonda tərəflər arasında qarşılıqlı hədiyyələr təqdim edilib.

## Bakıda Azərbaycan və Belarus hərbi mütəxəssisləri görüşüblər



Müdafiə Nazirliyi xəbər verir ki, hərbi əməkdaşlıq çərçivəsində noyabrın 25-də Bakı şəhərində Azərbaycan və Belarus Müdafiə nazirliklərinin hərbi mütəxəssisləri arasında görüş keçirilib.

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində təşkil edilən görüşdə hərbi sahədə təcrübə mübadiləsi, o cümlədən birgə təlimlərin təşkili, qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi və əməkdaşlıq planının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Tərəflər konstruktiv və işgüzar şəraitdə keçən görüş zamanı maraq doğuran bir sıra digər məsələləri də müzakirə ediblər.



## Naxçıvan Hərbi Kollecinin kursantları Heydər Əliyev Muzeyini ziyarət ediblər

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecinin kursantları "Heydər Əliyev irsini öyrənirik" məşğələləri çərçivəsində Naxçıvan Muxtar Respublikasında yerləşən Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Milli Müdafiə Universiteti xəbər verir ki, ziyarətin məqsədi kursantların Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi, həyat yolu və fəaliyyəti haqqında biliklərinin artırılması, həmçinin onların milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi olub.

Muzeyin ekspozisiyaları ilə tanışlıq zamanı kursantlara Ümummilli Lider Heydər Əliyevin keçdiyi şərəfli həyat yolu, Azərbaycanın ictimai-siyasi inkişafında oynadığı müstəsna rol, müstəqil dövlətçiliyimizin qurulması və möhkəmləndirilməsində həyata keçirdiyi tarixi xidmətlər barədə geniş məlumat verilib.

Kursantlar Ulu Öndərin müxtəlif dövrlərə aid fotoşəkillərini, qiymətli arxiv materiallarını, şəxsi əşyalarını və dövlətçilik fəaliyyətini əks etdirən sənədləri diqqətlə müşahidə ediblər.

Kursantlar, həmçinin Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti barədə yazılmış kitablar, elmi əsərlər və xatirə nəşrləri ilə tanış olaraq, Ulu Öndərin siyasi irsinin mahiyyəti, azərbaycançılıq ideologiyasının əsas prinsipləri və müasir dövlətçilik ənənələrinin formalaşmasında onun əvəzsiz rolu barədə məlumat əldə ediblər.

Muzey ziyarəti kursantlarda dövlətçilik tariximizə marağın daha da artırılmasına, milli ideyaya sədaqət ruhunun gücləndirilməsinə və onların Ümummilli Liderin irsini dərindən öyrənməsinə mühüm töhfə verib.

Sonda kursantların xatirə şəkli çəkilib.

## "Gələcəkdə QHT-lər türk dövlətləri və xalqlarının əldə etdiyi uğurlara ciddi töhfələr verəcək"

Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumu Türk dünyasında möhtəşəm bir başlanğıcdır.

AZƏRTAC xəbər verir ki, bunu Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov bildirib. Forumun iştirakçısı olan polkovnik qeyd edib ki, Bakıda keçirilən tədbir Türk dünyası üçün yeni bir ənənənin əsasını qoydu: "Bakıda TDT-yə üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun keçirilməsi hər mənada mühüm əhəmiyyətə malikdir. Prezident İlham Əliyevin forum iştirakçılarına ünvanladığı məktub tədbirin əhəmiyyətindən xəbər verir.

Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, forum türk dövlətləri arasında olduqca faydalı bir ənənənin başlanğıcını qoydu. Azərbaycanın səyi və təşkilatçılığı ilə ilk dəfə bir araya gələn türk dövlətlərinin QHT nümayəndələri birgə müzakirələr keçirdilər, əməkdaşlıq imkanlarının genişləndirilməsi istiqamətində mühüm addımlar atdılar. Bakıda keçirilən həmrəylik forumu bütün iştirakçı QHT-lər üçün mühüm təcrübə oldu. Çox böyük ehtimalla bundan sonra biz Türk dünyası daxilində QHT-lərin bu cür toplantılarına daha tez-tez rast gələcək, həmin forumların türk xalqları arasındakı münasibətlərin inkişafına böyük töhfə verdiyinə şahidlik edəcəyik".

O, Prezident İlham Əliyevin forum iştirakçılarına ünvanlandığı məktubda bir sıra məqamları diqqətə çatdıraraq deyib: "Məktubda həmrəylik forumunun əhəmiyyətinə toxunmaqla yanaşı, türk xalqlarının ortaq dil və mədəniyyətə malik olduğu önə çəkilir, türk dünyası daxilində əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanır. Həmçinin məktubda bildirilir ki, Azərbaycan Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə ikitərəfli və çoxtərəfli əsasda QHT-lər üçün tarix, mədəniyyət, ekologiya, iqlim siyasəti və digər sahələrdə ortaq qrant müsabiqələri elan etməyə, qarşılıqlı kommunikasiyanı gücləndirən layihələri dəstəkləməyə hazırdır".

Polkovnik bildirib ki, bu yanaşma forum iştirakçıları, habelə Türk dünyasında fəaliyyət göstərən bütün QHT-lərin qarşısına mühüm vəzifələr qoyur: "TDT-yə üzv olan dövlətlər Bakıda keçirilən forumun mahiyyətinə uyğun olaraq əməkdaşlıq əlaqələrini gücləndirərək mahiyyət etibarilə bütün Türk dünyasının inkişafına, onun dünyadakı mövqeyinin daha da güclənməsinə xidmət etməlidir. Ümid edirəm ki, yaxın gələcəkdə QHT-lər türk dövlətləri və xalqlarının əldə etdiyi uğurlara ciddi töhfələr verəcək, Türk dünyasının maraqlarını daha geniş coğrafiyada müdafiə etməyə nail olacaq".

# Sizi ölməzliyə Vətən uğurladı

(Əvvəli 1-ci səhifədə)

Mənə elə gəlir ki, indicə şəhidlərimizin səsini eşidəcəm: Haqlısan...

Tarixən bütün müharibələr torpağa (əraziyə) görə olub. Siz də, şəhid qardaşlarım, oğullarım, torpağa, əraziyə - Vətənə görə döyüşürdünüz, torpaq - Vətən uğrunda döyüşlərdə şəhid oldunuz. Sizi ziyarət müqəddəsliyi ziyarətdi. Siz burada, Şəhidlər xiyabanında uyuyursunuz, mənəvi-ruhi məzarınız ürəklərdədi - sayınız qədər mənəvi-ruhi məzarınız var...

Gələnlər sizi illərdi eyni yaşda görür; şəhidlik yaşı döyüşçünün son kəlməsinin yaşıdı. Bu iki duyum müqəddəsliyə beyətin qüdrətidi. Sizin səssiz söhbətinizi sədaqətlə dinləyirik. İşıq var baxışlarınızda, səssiz sözlərinizdə. Bu müqəddəs işıq Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasının qürurunun işığıdı. Həyat fəlsəfəsi, ömür fəlsəfəsi, il fəlsəfəsi deyir ki, ölməzlik ölümdən ömrə getməkdi - şəhidlik kimi...

Hərbi Memorial Məzarlığa gələndə ruhumuz ruhunuza sarılır, ömürlə ölməzliyin dilmancı sizin ruhlarınız olur. Ruhlarınızı səmavi səs kimi ürəyimizlə dinləyirik. Onu da bilirik ki, siz Vətən üçün yaşanılmayan ömürlərlə kəlmələşmirsiniz...

Məzarlıqda zaman ləng ötüşürmüş; zəvvara elə gəlir ki, zamanın dünəni var, sabahı var, bu günü yoxdu - bu günü də dünənlər kimi yaşayırsan...

Bayaqdan bəri əsə-əsə kəsən, kəsə-kəsə əsən ufacıq yeli ruhumun vasitəsilə qılığa tutmaq keçir könlümdən...

Ananın yerişi altı-yeddi yaşlı uşağın yerişinə yetirmir. Qərənfillər xırda qaçışlı - yeyin yerişli uşağın əlində közərən ümiddimi, gözləntilərə muştuluq olası işıqdımı, istəkdimi, niyyətdimi, nədi, nə? Bunun bir səmavi yozumu varmı? Dayanıb baxıram. Çatınca bircə anlığa dayanır, baxır və atasının məzar daşına sarılır. Hönkürtüsü çəkingən sükutun canına od salır elə bil. Məzar daşı göz yaşlarına bələndikcə kəlmələri göyləri yerə ələyəcək, uşağın qəhəri kükrəyə-kükrəyə kiriyəcək, qüruru dillənəcək: Bu gün Zəfər Günüdü, ata! Zəfərinizin Günüdü!

Allah, Allah bu zəvvar-uşağın, bu şəhid oğlunun sevinci nə biçim sevincdi?..

Qara paltarlı, qara örpəkli cavan gəlini görüncə xalq şairi Ramiz Rövşənin "Qara paltarlı qadın" şeiri düşür yadıma; bir azdan öyrənəcəm ki, səadətinin ömrü üç ay çəkib...

Dərdli gəlin halının qəbrinə yaxınlaşmır, baxışları xeyli aralıda bir baş daşının canyandıranıdı. Yerindən tərpənmir, baş daşlarından hayalanır elə bil, duyduğu nəfəslərdən hayalanır, qımıldanan səslərdən hayalanır, ... sükutdan hayalanır, ...

Dünyanın ən uzun yolu yolçusunu öz içindən Şəhidlər xiyabanına aparan yoldu. Ruhu rəvanlara elə gəlir ki, bura hər gəlişi Vətəndə Vətəni ziyarətdi. Yaşı yerişinə pərsəng olan bir ata şəkil oğulların - şəhid oğulların sırasından keçdikcə dayanır, dayanıb qəhərlə, kövrəkliklə baxır. Dərdinin ürəyinə yük olduğunu ağır yerişiylə gizlədir, şəhid oğullarla kəlmələşir:

- Hamınız oğlumsunuz, oğullarım..., - səsi qəhərdən çətinliklə sıyrılır. Hamınız son nəfəsi yeniyetməliyində can köynəyinə dönən tək oğlumun qardaşısınız. Kaş yaşayaydı, əsgər olaydı, sizin sıranızda döyüşəydi, o da sizin biriniz olaydı, əsgər atası olaydım, döyüşçü atası olaydım, şəhid atası olaydım, ay mənim şəhid oğullarım...

Əsən yellər qanar çalır, ağacların budaqlarından yarpaq salır. Göy üzündən üzülən baxışlarım şəhid oğulların baxışlarına sarılır. Düşüncələrim




"Yasin"in ayələrinə əyilir. Mənə elə gəlir ki, bu doğma baxışlar "Ömür də, şəhidlik də Vətən üçündü..." - deyir...

Mətərisi qoltuq ağacı olan cavanın nəhayətsizlikdə nəfəs dərən baxışlarından üzülməyən baxışları bir döyüşün hekayət tarixidi - şəhidliyin tarixidi, döyüşlərdə yaralananların tarixidi; döyüşlərdə yaralananlar şəhid döyüşçüylə ruhən kəlmələşir, bayaqdan bəri ruhuna köçürdüyü daş-baxışlarda onun son döyüşündən Zəfərə, Zəfərdən bu günə düşən işığı da görür, bu işıqda o döyüşü, o döyüşdə şəhid olan döyüşçünün atdığı son güllələri xatırlayır:

- Aprel döyüşlərindən danışardın, qəhrəmanlardan danışardın, özündən bircə kəlmə də eşitmədik. Sənin şücaətindən başqaları danışardı. Hər söhbətin vətənsevərlik dərsi idi, komandir. Müharibə başlayan gün mən və daha iki əsgərlə düşmənin iki mühüm postunu ələ keçirdik. Sən də bizim sıramızda əsgər kimi döyüşürdün, komandir. Döyüş əzmimiz sənin döyüşündən də güc alırdı, komandir. Müharibənin sonlarında ağır yaralandım... Tez-tez sənin ziyarətinə gəlirəm. Keçən ay ziyarətinə tanımadığım cavanlar da gəlmişdilər. Sənin müharibədən əvvəlki əsgərlərin olublarmış. Ziyarətinə mənəvi borc ödəməyə gəlmişdilər... Sən bizə Vətəni necə sevdirirdin, komandir, necə! Bu sevgiylə döyüşürdük. Yaralanmasam, bu sevgiylə də döyüşəcəkdim... Müharibə haqqında sənin döyüşündən danışıram, necə şəhid olduğundan danışıram, mənim komandirim. Sən mənim də, digər əsgərlərimizin də həm özünün komandiri idin, həm də ruhunun.

Şəhid baş leytenant Tural Əsgərli Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qıvraq kəndində anadan olub, Heydər Əliyev adına Hərbi İnstitutu bitirib. 2016-cı ilin Aprel döyüşlərində də iştirak edib. İkinci Qarabağ müharibəsində Murovdağ istiqamətində döyüşüb, oktyabrın 1-də şəhid olub. "Rəşadət" ordeni ilə, "Cəsur döyüşçü", "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medallarıyla təltif olunub...

Kimliyini soruşuram. Kirpiklərində iki damla yaş donub. Qəhərlə, "Keçmiş döyüşçü..." deyir, ad-soyad demir. Onun cavabını "Şəhid baş leytenant Tural Əsgərlinin əsgəri..." kimi başa düşürəm. İkimiz də şəhidin baş daşına baş əyirik...

Kimisə gözləyən dörd kursant qərənfilləri sinəsinə sıxıb. Düşünürəm: Ləçəklərinin titrəməsini istəmirlər, onlara elə gəlir ki, ləçəkləri titrəşən çiçəklər gözəlliyini itirir...

Gözləyirlər. Onların belə narahatlıqla gözləməsi mənə 1994-cü ilin Gəncədə şəhid müəllim, şair Nizami Aydının məzarını ziyarət etdiyim günü xatırladır. Nizami Aydın Birinci Qarabağ müharibəsində Sırxavənddə 40 nəfər döyüşçümüzü əsir düşməkdən xilas etmək üçün tankla düşmənin üzərinə getmişdi, döyüşmüşdü, döyüşdə tankı vurulmuşdu, tankla birlikdə özü də yanmışdı. Həmin gün beş şagird qəbiristanlığın girişində kimisə gözləyirdi.

- Müəllimimiz bizə riyaziyyatı öyrədirdi, şəhidliyi ilə Vətəni necə sevməyi də öyrətdi, - şagirdlərdən biri belə demişdi.

- Bizə Vətəni tanıtmışdı, sevgisiylə tanıtmışdı, şəhidliyiylə bir də tanıtdı, - biri belə demişdi.

- Müəllim ömrü şagirdlərinin ömründədi, - biri belə demişdi.

Müəllimi olduğu şagirdinin şagirdlərini görəndə ağbirçək müəllim kövrəlmişdi...

Kursantlar komandirlərinin ziyarətinə gəlmişdilər...

Hərbi Memorial Məzarlıqda dərk edirəm ki, kursant üçün komandir öyrədəndi, müəllimdi. Komandirin ömür payı kursantlarının, əsgərlərinin ömründədi...

...Kursantlar şəhid zabitə məruzə edirlər sanki; bu müqəddəs məruzə ruhun müqəddəs ruha müraciətidi: Zəfər bayramın mübarək, komandir!..

Tarix olmuşların yaddaşıdı. Bir günün də yaddaşı olur; bu günün yaddaşında qalanlar da Vətən üçündü, şəhid qardaşım, şəhidlərin ruhuna ehtiram üçündü...

Sizi ölməzliyə Vətən naminə Vətən uğurladı!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# "Yaqub Nəcəfovun yaddaşa yazılan ömür dastanı" adlı kitabın təqdimatı keçirildi



Vətən müharibəsi şəhidi leytenant Yaqub Nəcəfovun anım günü münasibətilə Culfa rayon Mədəniyyət Sarayında tədbir keçirildi. Tədbirdə Culfa rayon İcra Hakimiyyətinin əməkdaşları, Naxçıvan Ali Məclisinin deputatları, idarə və müəssisələrin rəhbər şəxsləri, şəhid ailələri, hərbi qulluqçular, polis əməkdaşları və digər güc strukturlarının əməkdaşları iştirak etdilər.

Tədbir Ulu Öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı.

Tədbirdə çıxış edənlər bildirdilər ki, xalqımıza bu qürurverici tarixi qələbəni yaşadan igidlərimizdən olan Yaqub Nəcəfov Vətən sevgisi ilə böyüyüb, gəncliyində bunu amalına çevirib. O, Cəbrayıl, Füzuli və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə böyük şücaət göstərərək şəhadətə yüksəlib.

Tədbir zamanı yazıçı-publisist Ədalət Cəfəroğlunun şəhidin həyat və döyüş yoluna həsr etdiyi "Yaqub Nəcəfovun yaddaşa yazılan ömür dastanı" adlı kitabının təqdimatı keçirildi. Kitab haqqında öz fikirlərini bildirən Culfa rayon İcra Hakimiyyətində Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin əməkdaşı Təbriz Hüseynzadə qeyd etdi ki, Ədalət Cəfəroğlunun "Yaqub Nəcəfovun yaddaşa yazılan ömür dastanı" adlı əsəri sadəcə bir nəşr deyil. "Bu, bir igidin ruhu, bir ailənin fəxri və bir xalqın yaddaşına yazılmış ömür hekayəsidir. Əsər həm xalqın, həm də Yaqubun ailəsi və dostlarının xatirələrindən yaranıb. Onlar Yaqubu fərqli rakurslardan təqdim edir. O, kimin üçün mehriban qardaş, kimin üçün sadiq dost, kimin üçün döyüşçü, kimin üçün isə Vətən uğrunda canını fəda etmiş şəhiddir".

Kitabın müəllifi Ədalət Cəfəroğlu çıxışında kitab haqqında tədbir iştirakçılarına məlumat verdi. Qeyd etdi ki, bu kitab Culfa şəhidlərinə həsr edilmiş dördüncü kitabdır. O, yaxın günlərdə şəhid Dünyamalıyev Ceyhun haqqında yazdığı kitabın da təqdimatının keçiriləcəyini bildirdi.

Sonra Şəhid Yaqub Nəcəfovun atası Məmməd Nəcəfov ailəsi adından çıxış edərək tədbirdə iştirak edən bütün qonaqlara minnətdarlığını ifadə etdi. Tədbirdən sonra iştirakçılar şəhidimizin məzarını ziyarət etdilər.

Qeyd edək ki, şəhid leytenant Yaqub Nəcəfov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

**Bəxtiyar ƏLİYEV**
**Naxçıvan Şəhid Ailələri İctimai Birliyinin mətbuat katibi**





*Tibb xidməti*

# "Əsgərlərimizin sağlam olmaları üçün bütün bacarığımızı səfərbər edirik"

(Əvvəli 1-ci səhifədə)

Onların məntəqəyə müraciət edən xəstələrə qarşı qayğıkeş münasibəti, peşəkar yanaşmaları bizdə gözəl əhvali-ruhiyyə yaratdı. Tibb məntəqəsinə daxil olduqdan sonra burada olan təmizlik və səliqə-sahman göz qabağında idi. Əlbəttə ki, hərbi qulluqçunun sağlamlığının tez bərpa olunması üçün müalicə aldığı yerin səliqəli və təmiz olması mühüm amillərdəndir.

İlk olaraq məntəqədə baş gizir Elnur Dərgahov ilə söhbətləşdik. Məlum oldu ki, hərbi qulluqçumuz 22 ildən çoxdur ki, Azərbaycan Ordusunun sıralarında xidmət edir. O, şəxsi heyətin sağlamlığının keşiyində dayanmağın onun üçün böyük qürur olduğunu vurğuladı. "Əsas məqsədimiz hərbi qulluqçularımızın sağlamlığının qayğısına qalmaqdır. Bu istiqamətdə üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırıq. Bizə müraciət edənlərin şikayətlərini diqqətlə dinləyir, müayinə edərək diaqnozlarını təyin edir, sonra isə müalicəsinə başlayırıq. Məntəqəmizin müasir tibbi avadanlıqlarla təchiz edilməsi isə ümumi işimizin yüksək səviyyədə aparılmasına müsbət təsir göstərir. Əsgərlərimizin sağlam olmaları üçün bütün bilik və bacarığımızı səfərbər edirik ki, onlar qısa zamanda sağalaraq xidmət yerlərinə qayıtsınlar, komandirlərinin tapşırıqlarını uğurla yerinə yetirsinlər, təlim və məşqlərdə fəallıq göstərsinlər".

Baş gizir E.Dərgahov əlavə olaraq qeyd etdi ki, xidmətləri yalnız müayinə və müalicə ilə məhdudlaşmır, mövsümi xarakter daşıyan respirator virus infeksiyalarına yoluxma hallarının qarşısının alınması məqsədilə şəxsi heyət arasında maarifləndirici söhbətlər aparılır, sanitariya-gigiyena qaydalarına riayət etməyin vacibliyi izah olunur, profilaktik tədbirlər görülür.

Söhbət əsnasında öyrənirik ki, E.Dərgahov Aprel döyüşlərində, İkinci Qarabağ müharibəsində, antiterror əməliyyatında da iştirak edib. Hərbi qulluqçumuz 44 günlük Vətən müharibəsində yaralıların döyüş meydanından təxliyə olunması tapşırığını yerinə yetirərkən düşmən tərəfindən atılan mərminin partlaması nəticəsində travma alıb. O, həmin günləri xatırlayaraq dedi ki, erməni təxribatı nəticəsində müharibə başladıqdan sonra bütün tibb heyəti ilə birlikdə cəbhə bölgəsinə yollanıb. "Döyüşlərin ilk günlərindən etibarən yaralılara ilkin tibbi yardım göstərdik. Yüngül yaralıları səhra tibb məntəqəsində müalicə edir, ağır yaralıları isə hospitala təxliyə edirdik", - deyə E.Dərgahov bildirdi.

Baş gizir Elnur Dərgahov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Peşəkar tibbi personalımızın qayğısı əhatəsində olan əsgərlərimiz də yaradılan bu cür şəraitdən razı olduqlarını bildirdilər. Həkimlərimizin düzgün müayinə və müalicəsi nəticəsində onlar qısa müddət ərzində sağlamlıqlarını bərpa edir, yenidən xidmət yerlərinə yollanırlar. Əsgərlər Elmin Kərimov, Röyal Mustafayev və Raul Hüseynov bildirdilər ki, həkimlərimizin, tibb işçilərimizin sayəsində heç bir narahatlığımız qalmayıb. Buna görə də hər birimiz burada çalışan bütün həkim personalına dərin minnətdarlığımızı bildiririk.

Tibb məntəqəsində şahidi olduqlarımız bir daha sübut etdi ki, burada xidmət edən tibbi personal şəxsi heyətin sağlamlığını daim diqqət mərkəzində saxlayır. Onların gərgin və məsuliyyətli əməyi sayəsində əsgərlərimizin sağlamlığı tam nəzarətdə saxlanılır, vaxtında müayinə və müalicə olunurlar. Bu isə ordumuzun döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasına mühüm töhfə verir.

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**



*Nümunəvi xidmət*

# Sürücü olmaq üçün səbir və peşəkarlıq əsas şərtdir

"N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nicat Nağıyevlə tanış olduq. Hərbi hissədə günün nizam qaydalarına uyğun olaraq park təsərrüfat günü təşkil olunur, sürücü isə ona təhkim olunmuş hərbi texnikaya qulluq göstərirdi. Ortaboy, gülərüz biri olan əsgər Nicat Nağıyev vətənpərvər və peşəkar olması ilə ilk dəqiqələrdən diqqətimizi cəlb etdi. Fürsətdən istifadə edib, onun fikirlərini qələmə aldıq.

2019-cu ildən ordu sıralarında xidmət edən Nicat gənc yaşlarından sürücülüyə və hərbçi peşəsinə marağı ilə seçilib. "Doğulub boya-başa çatdığım rayonumuzda hərbi hissələrimizdən birinə yaxın qalmağım mənim həyat yolumu təsdiqlədi. Ailəmdə mənə uşaq yaşlarımdan vətənpərvərlik, Vətən sevgisi kimi ali məfhumlar aşılanıb. Yaxınlarım, doğmalarım tez-tez ermənilərin xalqımızın başına gətirdiyi müsibətlərdən, savaşın qanlı-qadalı günlərindən danışardılar. Gənc yaşlarımdan avtomobil idarə etməyə də xüsusi həvəsim olub. Onun texniki hissələrini, yol hərəkəti qaydalarını öyrənmişəm, imtahanlarda iştirak edərək minik və yük maşınlarının idarə edilməsi kateqoriyası üzrə sürücülük vəsiqəsi əldə etmişəm", - əsgər dedi.



- Bu gün də xidmət zamanı parkımızda texniki qulluq və ya təmir işlərində özümü daha da təkmilləşdirir, sıramıza təzə qoşulan yoldaşlarımıza zəruri bilikləri öyrədirik. Hərbi sürücü olmaq da insandan peşəkarlıq və təcrübə tələb edir. Sürücü hər zaman diqqətli və yüksək təcrübəyə malik olmalıdır. Texnika hər hava şəraitinə, relyefə və vəziyyətə hazır olmalıdır. Hazır olması üçün də onun qulluğu yüksək səviyyədə aparılmalıdır. Hər zaman çıxışdan qabaq avtomobilin texniki cəhətdən sazlığını yoxlayıb, ona mütləq qulluq göstərməlisən. Təyin olunan əraziyə çatmaq üçün operativlik, təhlükəsizlik qaydaları ön plana çıxır ki, bunun üçün də ixtisasının nəzəri və praktiki bacarıqlarını düzgün mənimsəmək vacib şərtdir. Çıxış zamanı baş verə biləcək problemlərin, nasazlıqların vaxtında aradan qaldırılması da sürücünün vəzifələrindən biridir. Çünki avtomobil idarə edərkən özünlə yanaşı, digər insanları da daşıyırsan ki, məsuliyyəti dərk etmək vacibdir. Bunlardan savayı səbir, məsuliyyət, diqqət də sürücünün sahib olması gərəkən keyfiyyətlərdəndir", - deyən Nicat Nağıyev fikrini tamamladı.

Müsahibimlə həmsöhbət olarkən öyrənirəm ki, o, İkinci Qarabağ müharibəsi zamanı Füzuli istiqamətində təminat tapşırıqlarının icrasında iştirak edib, ona təhkim olunmuş avtomobillə üzərinə düşən tapşırıqları ərazinin təhlükəli olmasına baxmayaraq, uğurla yerinə yetirməyi bacarıb. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Nicat Nağıyev Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

Onun haqq savaşımızla bağlı da fikirlərini öyrəndim. "Müharibə vaxtı komandirlərimizin tapşırığı ilə təminat təyinatlı tapşırıqların icrasında iştirak etmişəm. Hər birimiz verilən tapşırıqların uğurla icrası, bölməmizin zəruri vasitələrlə tez vaxtda təmin edilməsi üçün canımızdan belə keçməyə hazır idik. Bu gün ordu sıralarında qalib əsgər olaraq xidmət etməkdən qürurluyam. Haqq savaşımızın iştirakçısı olduğum üçün qürurum daha da çoxdur. İllərdir işğalda olan Vətən torpaqlarımız bu gün azaddır, şanlı üçrəngli bayrağımız zirvələrdə dalğalanır, qəhrəman şəhidlərimizin bu gün ruhları şaddır. Hər bir azərbaycanlı "Qarabağ Azərbaycandır!" - deyir və bütün dünya bu reallığı dərk edir. Sevinirik ki, bu gün güclü ordunun əsgəri, qalib xalqın nümayəndələriyik", - əsgər N.Nağıyev dedi.

Təcrübəli sürücümüzə gələcək xidmətində uğurlar arzulayıb sağollaşdıq. Onunla söhbətdən sonra bir daha əmin oldum ki, Nicat Nağıyev bundan sonra da öz işinə məsuliyyətlə yanaşacaq, təcrübəsi və vətənpərvərliyi sayəsində bundan sonra da üzərinə düşən tapşırıqları müvəffəqiyyətlə icra edəcək.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsi BMT-nin sənədi kimi yayımlanıb

Sentyabrın 21-də "Terror aktları və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının birgə fəaliyyəti" mövzusunda keçirilmiş III Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciəti BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi qeydiyyata alınaraq yayımlanıb.

AZƏRTAC-ın məlumatına görə, bu əlamətdar hal Bakı Təhlükəsizlik Forumunun təhlükəsizlik sahəsində artan əhəmiyyətindən, beynəlxalq institusional-hüquqi perspektivindən xəbər verir.

Forumun builki plenar iclası Bakı Təhlükəsizlik Forumunun Əsasnaməsinin və Bəyannaməsinin qəbul edilməsi, həmçinin ümumi razılıq əsasında dünyada ilk dəfə xüsusi xidmət və təhlükəsizlik orqanları arasında 247 rejimli Antiterror İnformasiya Mübadiləsi Sisteminin yaradılmasının qərara alınması ilə yadda qalıb.

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin təşkilatçılığı, 90-a yaxın xarici xüsusi xidmət orqanının rəhbərlərinin və yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbirin iştirakçılarına Prezident İlham Əliyevin ünvanladığı müraciətdə bildirilir ki, Forum qlobal və regional təhdid və risklərin müəyyənləşdirilməsi, onların neytrallaşdırılması yollarının araşdırılması baxımından unikal formata malik beynəlxalq tədbirdir. Dünyanın bütün qitələrindən müxtəlif ölkələri təmsil edən xüsusi xidmət orqanı rəhbərlərinin və təhlükəsizlik məsələləri üzrə ekspertlərin ümumi təhdidlərlə mübarizə məqsədilə hər il Bakıda toplaşması ənənəsinin yaranması Forumun timsalında Bakının qarşılıqlı etimad və əməkdaşlıq məkanı olmasının bariz nümunəsidir.

Forumun Bəyannaməsində iştirakçı dövlətlər beynəlxalq hüququn təməl prinsiplərinə sadiqliklərini bildirərək, xüsusi xidmət və təhlükəsizlik orqanları tərəfindən transmilli mütəşəkkil cinayətkarlıq, beynəlxalq terrorçuluq və qlobal təhlükəsizliyə təhdid sayılan digər hallarla mübarizədə səylərin birləşdirilməsinin, qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsinin, təcrübə və məlumat mübadilələrinin fasiləsiz, aktiv və operativ şəkildə aparılmasının və beynəlxalq təhlükəsizliyin etibarlı təmin olunması üçün davamlı olaraq birgə qətiyyətli addımların atılmasının vacibliyini bəyan etmişlər.

Qeyd edək ki, Forumda həmçinin BMT-nin təhlükəsizlik sahəsində aidiyyəti strukturları təmsil olunub, Forumun Bəyannaməsinin və Azərbaycan Respublikası Prezidentinin müraciətinin BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi qeydiyyata alınaraq yayımlanması Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəsinin müraciəti əsasında olub.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu: Əsgərin döyüşə psixoloji hazırlığı qələbənin rəhnidir.**

**Suallar:**

**1. Əsgərin psixoloji hazırlığının mahiyyəti və məzmunu.**

**2. Döyüşə psixoloji hazırlığın əsas üsulları.**

### Əsgərin psixoloji hazırlığının mahiyyəti və məzmunu

Əsgərin döyüşə psixoloji hazırlığı, hərbi kollektivlərin şəxsi heyətinin mənəvi-psixoloji vəziyyəti hər bir ordunun döyüş gücünün vacib tərkib hissələrindən biri sayılır. XXI əsrin ən parlaq savaş nümunəsi 44 günlük Vətən müharibəsi Azərbaycan dövlətinin qüdrətini və ordusunun döyüş qabiliyyətini bütün dünyaya nümayiş etdirdi. Vətən müharibəsində qazanılmış Zəfərin əsasını qoyan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu barədə belə demişdir: "44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir".

"Mənəvi-psixoloji vəziyyət" məfhumu qoşunların fəaliyyətinə Azərbaycan Ordusunda yeni quruculuq işlərinin başlanması ilə daxil edilmişdir. Bu onunla şərtlənmişdir ki, hərbi-siyasi vəziyyətin yeni həqiqətləri, qarşıda duran hərbi vəzifələrin xüsusiyyətləri insan amilinin bütün tərkib hissələrinin maksimum fəallaşdırılmasını tələb edir.

Həm 44 günlük Vətən müharibəsində, həm də Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağ iqtisadi rayonunda 23 saat davam edən lokal xarakterli antiterror tədbirləri zamanı Azərbaycan əsgərinin göstərdiyi qəhrəmanlıqlar, şücaət və igidlik nümunələri onun psixoloji hazırlığının göstəricisidir. Hələ 14 yaşında ikən hakimiyyətə gəlmiş Şah İsmayıl Xətai Azərbaycanı birləşdirmək uğrunda savaşa qalxarkən belə demişdir: "Biz müharibədə süstlük etsək, onda həm Vətənimizi, həm də həyatımızı itirəcəyik". Atabəy Eldəgiz, Uzun Həsən, Mustafa Kamal Atatürk müharibələr tarixində ona görə iz buraxa bilmişlər və hərb sənəti onların qazandığı şöhrəti ona görə qoruyub saxlayır ki, onlar gözəgörünməyən, lakin "dəhşətli" bir gücdən - döyüşçü psixikasından yararlanmağı bacarmışlar.

Əsgərlərin döyüşlərə psixoloji hazırlığının yüksək dərəcədə olması özünü hərbi qulluqçuların və ilk növbədə Azərbaycan əsgərinin döyüş şəraitindəki davranışında gostərmişdir. Əksinə olduğu hallarda, yəni, psixoloji hazırlığı zəif olan hərbçilərin, o cümlədən Azərbaycan torpaqlarını 30 ilə yaxın bir müddətdə qəsb etmiş erməni hərbi qulluqçularının rəftarında açıq-aydın görmək mümkün idi. Onların əksəriyyəti hay-küyə və çaxnaşmaya düşür, əmrləri düzgün yerinə yetirə bilmir və yaxud yerinə yetirmək istəmir, onlarda məqsəd aydınlığı, qətiyyət, döyüş fəallığı, təşəbbüskarlıq və özünənəzarət zəif olur ki, bunları da müharibə zamanı şübhələr, inamsızlıq və qətiyyətsizlik əvəz edir və iradə zəifliyi müşahidə olunur.

Hərbçidə çatışmayan mühüm cəhət mənəvi-psixoloji hazırlığın zəifliyi ilə bağlı olur. Müharibənin tələb etdiyi hazırlıq başa çatdırılmayıbsa, o, əks psixoloji təsirlərin təzyiqindən özünü xilas edə bilmir. Əks psixoloji reaksiyaların təsirini azaltmaq üçün daxili qüvvələri səfərbər etmək lazım gəlir.

**Əsgərin psixoloji hazırlığı:**

- döyüşdə fəal, təşəbbüskar, fədakarcasına hərəkət etmək bacarığının qazanılmasını,
- fiziki və psixoloji gərginliyə tab gətirməyi, qorxu hissi ilə mübarizə aparmağı,
- döyüş tapşırıqlarını yerinə yetirmək üçün zəruri olan emosional - iradi keyfiyyətləri,
- psixoloji dayanıqlığın formalaşdırılması üzrə fəaliyyətlər kompleksini təşkil edir.

Döyüş əsgərin öz potensialını cəld göstərə bilməsi bacarığına çox sərt tələblər irəli sürür. Bunun dəyəri isə ya həmin əsgərin özünün, yoldaşlarının həyatı hesabına və yaxud döyüş tapşırığının yerinə yetirilməsi ilə ölçülür.

Əsgərin verilmiş tapşırığı bacardığı səviyyədə (döyüş ustalığını göstərməklə) yerinə yetirməsi daxili amillərdən, yəni,

- hər şeydən öncə insanın əqidəsindən;
- onun təhlükəli, gözlənilməz, qeyri-müəyyənlik və vaxt qıtlığı şəraitlərində səmərəli hərəkət etmək qabiliyyətindən;
- verilmiş məqamda əsgərin emosional vəziyyətindən, səhhətindən asılıdır.

Sadalanmış amillərin məcmusu "psixoloji hazırlıq" adlandırılır.

Əsgərin döyüşə psixoloji hazırlığı bölmənin döyüş fəaliyyətinə dərhal başlaya bilməsinin əsas tərkib hissələrindən biridir. Bu,

- birinci növbədə Vətəni, doğmaları və əzizlərinin taleyi barədə əsgərin məsuliyyət hissini, özünə, öz yoldaşlarına, silahına, döyüş texnikasına inamın olmasını;
- ikinci növbədə isə mübarizə aparmaq, özünü sınaqdan keçirmək, öz zəif cəhətlərini üstələmək, düşmən üzərində qələbə qazanmağı nəzərdə tutur.

**Əsgərin döyüşə psixoloji hazırlığının əsas əlamətlərinə:**

- tələskənlik və qapalılığın olmaması, hesablanmış və rəvan davranış;
- əmr və tapşırıqların səhvsiz və dəqiq yerinə yetirilməsi;
- normal fizioloji vəziyyət (nəbzin tezliyi, nəfəs alma, sifət rəngi və s.) aid edilir.

**Döyüşə psixoloji hazırlığın üç dərəcəsi var:**

1 - aşağı;
2 - orta;
3 - yüksək.

**Aşağı dərəcəli psixoloji hazırlığın təzahür cəhətləri:**

- əsgər özünə inanmır, mübarizə aparmağa can atmır, qərarsızdır, həddindən artıq tələskən və yaxud qapalıdır, ən sadə tapşırıqların yerinə yetirilməsində səhvlər buraxır.

**Orta dərəcəli psixoloji hazırlığın xarakterik əlamətləri:**

- özünə və yoldaşlarına inanır, lakin cəsarətli hərəkətləri, mübarizə aparmaq cəhdləri hələ kifayət qədər deyildir. Əsgər verilən tapşırıqların yerinə yetirilməsində kiçik səhvlərə yol verir, fizioloji vəziyyəti normaya yaxındır.

**Yüksək səviyyəli psixoloji hazırlıq:**

- mübarizə aparmaq arzusu, şübhələrin yoxluğu, özünü sınamaq cəhdi və düşmən üzərində qələbənin qazanılması istəyi fərqləndirir. İnsan fiziologiyasının və psixikasının mühafizə mexanizmləri olduğuna görə, əsgər psixoloji hazırlığın bu səviyyəsində uzun müddət qala bilməz.

Buna görə də əsgər üçün çox vacibdir ki, döyüş qabağı özündə və yoldaşlarında orta səviyyəni saxlasın. Döyüşün gedişatında isə psixoloji hazırlığın yüksək səviyyəsi qoşulmalıdır.

Döyüş təlimi prosesində hər bir əsgər öz döyüş və psixoloji hazırlığını təkmilləşdirməlidir. Döyüşə hazırlığın faydalı vasitələrindən biri kimi əsgərin öz hərəkətlərinin ardıcıllığını əvvəlcə səhv etmədən asta-asta, getdikcə sürətini artıraraq ürəyində deməsi məsləhət görülür. Əsgər şəraitə fikrən o qədər öyrəşir ki, özündən asılı olmayaraq hərəkət etməyə başlayır. Bu isə düşüncə ilə davranış arasında möhkəm əlaqənin yaranması deməkdir.

Dərhal başlanacaq döyüş əməliyyatlarına psixoloji hazırlığın saxlanılması üçün psixoloji özünütənzimləmə üsullarından istifadə oluna bilər.

### Döyüşə psixoloji hazırlığın əsas üsulları

Döyüşə psixoloji hazırlığın saxlanılması üçün özünütənzimləmənin əsas üsulları aşağıdakılardır:

- özünəinam və özünütəlqin;
- öz təxəyyülünü idarəetmə;
- nəfəs almanı və əzələləri tonusda saxlamaq.

**Özünəinam** - əsgərin hazırlığını yüksək səviyyədə saxlamağın vacibliyini özünə sübut etməsidir. Döyüş növbətçiliyini, qarovul xidmətini çəkən və yaxud digər döyüş tapşırığını yerinə yetirən hər bir əsgər onu yayındıran fikirlərin, istəklərin yaranması nəticəsində sayıqlığını itirməsinin nə cür dəhşətli hadisələr, nəticələr törədə biləcəyini aydın təsəvvürünə gətirməlidir. Bu yerdə Nizamnamələrin tələblərini, rəislərin xəbərdarlıqlarını, xidmətin ibrətamiz nümunələrini mütləq yada salmaq lazımdır.

**Özünütəlqin** - özünəinam kimi, əsgərin əsas təsir vasitəsi olaraq sözdən istifadə etməsilə şüurlu şəkildə əldə olunur. Özünütəlqin insanın özünə və imkanlarına olan inamın gücünə onun psixi vəziyyətini dəyişə bilər. Məsələn, gecə xidmət çəkən əsgər yuxuluqla oyaqlıq arasında olduğu üçün bəzi hallarda sanki tormozlanmış vəziyyətə düşür. Əsgərin psixikasının məhz bu vəziyyəti istənilən özünütəlqinə daha həssas olur. Ona görə də yuxulamağa və yaxud rahatlıq tapmağa olan ən kiçik cəhd belə yerindəcə dəf olunmalı və rədd edilməlidir. Əks təqdirdə şərait faciə ilə nəticələnə bilər.

Sayıqlığın itirilməsi çox ağır nəticələrə səbəb olur. Buna görə də əsgərlərdə gümrahlığın və aktivliyin saxlanılması üçün hərbi psixoloqlar çox dəqiq və qısa özünü təlimat forması tövsiyə edirlər. Yuxusu gələn, taqətdən düşən, sayıqlığını itirən əsgər bu ifadələri tez-tez işlətməlidir: "Mən diqqətimi toplayıram", "Mən sakitəm və özümə inanıram", "Mən öz davranışımı və vəziyyəti tam nəzarətdə saxlayıram".

Bu özünü təlimatlar ehtiyac duyulan vəziyyətin məxsusi modellərini təsvir edirlər. Əsgərin qabaqcadan hazırladığı sözlü düsturlar, dəfələrlə təkrar etmə yolu ilə şüuraltına yerləşdirilir və yubatmadan onun vəziyyətini müəyyən etməyə başlayır.

**Özünütəlqin zamanı bəzi qaydalara riayət etmək vacibdir:**

1. Özünütəlqin düsturlarını 5-6 dəfə ürəyinizdə təkrar etməli, onun məzmununa diqqət yetirməli və ehtiyac duyulan vəziyyəti təsəvvür etmək lazımdır.

2. Sözlü düsturlar qısa, aydın olmalı və konkret şəraitdə onları yerinə yetirmək imkanları şübhə doğurmamalıdır. Burada heç bir özünütənqidə yol vermək olmaz. Yalnız öz qüvvələrinizə tam inam təxirə salınmaz nəticələr verə bilir.

3. Sözlü düsturlar yalnız təsdiqedici formada işlənməli, yəni, inkaredici ifadələrə yol verilməməlidir. Məsələn: "Mən yatmaq istəmirəm" özününtəlqini əks təsir verə bilər. Çünki "istəyirəm" əvəzinə deyilən "istəmirəm" ifadəsindəki "yi"-ni əvəzləyən "mi" inkar şəkilçisi adətən şüuraltında nəzərə çarpmır. Bu cür hallarda yuxunu xatırlamaq ümumən olmaz. Əksinə, demək lazımdır ki: "Mən gümrah və çalışqanam" və yaxud "Mən yatmaq istəmirəm" ifadəsinin əvəzinə "Mən gümraham" ifadəsini işlətmək lazımdır.

Diqqətin idarə olunması əsgərin təxəyyülünü idarəetməsi ilə sıx əlaqəlidir. Diqqətin hansı səmtə yönəlməsi onun sayıqlığına güclü təsir göstərir. Şüurlu nəzarətdən kənarda olan diqqətin döyüş tapşırığı ilə heç bir əlaqəsi olmayan obyektə keçirilməsi insanı yayındıra bilir. Bu isə insan psixikasının daha bir sirridir. Əgər ona məhəl qoymasaq, daha ağır nəticələr qazanarıq. Köhnə bir fəndi misal gətirək. Düşmən qarovulçunu, saatdarı yayındırmaq məqsədilə kənara bir daş atır və qəfildən onun gözləmədiyi yerdən üstünə tullanır. Belə olan hallarda əsgər üçün vacibdir ki, qəfildən güclü qıcıqlandırıcı (təhlükəli səs, ekranın sönməsi, posta yaxın insan və yaxud heyvan) peyda olduqda bütün diqqətini yalnız bu obyekt üzərində saxlamasın. Eyni vaxtda daha əsas ola biləcək digər istiqamətləri də müşahidə etsin. Bunun üçün isə qabaqcadan diqqətin ən təhlükəli istiqamətlərin hər birinə növbə ilə keçirilməsi planı tərtib olunmalıdır. Yalnız bu qaydalara riayət etməklə şərait üzərində nəzarəti saxlamaq mümkündür. Döyüş şəraitində isə diqqəti döyüş tapşırığına aidiyyəti olan obyektlər üzərində saxlamaqla, ikinci dərəcəli qıcıqlara yayınmamaq tövsiyə olunur.

Nəfəsalmanın idarə olunması və əzələlərin tonusda (işlək vəziyyətdə) saxlanılması sırf psixoloji fənd sayılmır. Lakin nəfəsalmanın dərinliyi və tezliyi, bədən əzələlərinin gərilmə dərəcəsi əsgərin döyüş şəraitindəki psixi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Əsəb gərginliyinin götürülməsi üçün sakitləşdirici nəfəsalma fəndi təklif olunur. Dərindən nəfəsinizi alır, mümkün qədər nəfəsinizi saxlayıb və bacardığınız qədər asta sürətlə buraxırsınız. Psixi halınızı sakitləşdirmək üçün sizə bu fəndi 5-7 dəfə təkrar etmək lazımdır. Bundan sonra düşməni uzunmüddətli müşahidə etmək üçün zehniniz açılacaq, iradəniz səfərbər olunacaq və əzələlərinizdə təzə qüvvə əmələ gələcəkdir.

Əzələ gərginliyi əsəb fəallığını xeyli dərəcədə şərtləndirir və deməli, əsgərdə səfərbər olmaq hissinin və gümrahlığın yaranmasına səbəb olur. Əzələnin boşaldılması isə əksinə, əsgərin psixikasına sakitləşdirici və tormozlandırıcı təsir göstərir. Ona görə də döyüşü gözləmə vaxtı bədən əzələlərini gərilmiş və elastik vəziyyətdə saxlamaq lazımdır. İsidilmiş aktiv əzələlər əsgərin döyüşə psixoloji hazırlığını yüksəldir.

Beləliklə, döyüş təlimi əsgərə hərbi biliklər qazanmaq, özündə döyüş səriştəsi və bacarıqlarını formalaşdırmaq imkanı verir. Bu isə özünəinamın əsasıdır. Psixoloji hazırlıq təlimləri isə onda döyüş fəaliyyətlərinə psixoloji cəhətdən dərhal başlamaq qabiliyyəti yaradır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Vətən müharibəsi zamanı şəhidlik zirvəsinə ucalan leytenant Mətin Hüseynovun anım tədbiri keçirildi

*Ordubad rayonunun Düylün kəndində Vətən müharibəsi şəhidi leytenant Mətin Ramiz oğlu Hüseynovun anım tədbiri keçirildi. Tədbirdə Ordubad rayon İcra Hakimiyyətinin rəhbərliyi, hüquq və mühafizə orqanlarının rəhbər şəxsləri, idarə, müəssisə və təşkilatların əməkdaşları, şəhid ailələri, müharibə iştirakçıları, məktəb kollektivləri və ictimaiyyətin nümayəndələri iştirak etdilər.*



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət Himni səsləndirildi.

Çıxış edənlər şəhid Hüseynov Mətin Ramiz oğlunun igidlik və fədakarlıq nümunəsi olan həyat yolundan bəhs etdilər. Bildirildi ki, Vətən müharibəsinin ilk günündən etibarən Mətin Füzuli, Cəbrayıl və Xocavənd istiqamətlərində gedən ağır döyüşlərdə böyük şücaət göstərib. Döyüş yoldaşlarının söylədiklərinə görə, o, hər zaman ön sırada gedən, yoldaşlarını qoruyan, verilən tapşırıqları dəqiqliklə yerinə yetirən cəsur və qorxmaz bir hərbçi olub.

Çıxışlarda vurğulandı ki, Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti, xalqımızın həmrəyliyi və ordumuzun gücü sayəsində torpaqlarımız işğaldan azad edildi. Mətin kimi mərd Vətən oğullarının göstərdiyi fədakarlıq bu Zəfərin əsas sütunlarından biridir və onların əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

Qeyd olundu ki, dövlət başçısının tapşırığına əsasən, şəhid ailələrinə və müharibə iştirakçılarına göstərilən diqqət və qayğı davamlı xarakter daşıyır, onların üzləşdiyi bütün məsələlərin həlli istiqamətində ardıcıl addımlar atılır.

Şəhid Mətin Hüseynovun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. O, 3-cü dərəcəli "Rəşadət" ordeni, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Tədbirin sonunda məktəblilər tərəfindən şəhidlərin xatirəsinə həsr olunmuş vətənpərvərlik mövzusunda şeirlər səsləndirildi, qəhrəmanlarımızın ruhuna bir daha ehtiram ifadə olundu.

**Bəxtiyar ƏLİYEV**
**Naxçıvan Şəhid Ailələri İctimai Birliyinin mətbuat katibi**



# Milli Qəhrəman Çingiz Qurbanovun xatirəsi anılıb

Azərbaycanın Milli Qəhrəmanı, şəhid Çingiz Qurbanovun doğum günü münasibətilə Qusarda məzarı ziyarət olunaraq, xatirəsi ehtiramla yad edilib.

Çingiz Qurbanov 1994-cü il noyabrın 24-də Qusarın Həzrə kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra təhsilini Azərbaycan Texniki Universitetində davam etdirib. 2016-cı ildə həmin universitetin məzunu olan Çingiz Qurbanov iyul ayında həqiqi hərbi xidmətə yollanıb. 2016-cı il dekabrın 29-da Ermənistan silahlı qüvvələrinin kəşfiyyat qrupunun təxribat-pozuculuq fəaliyyətinin qarşısını alarkən baş vermiş döyüşdə şəhid olub. Şəhidin cəsədi 2017-ci il fevralın 5-də qarşı tərəfdən alınıb. Bakıda təntənəli vida mərasimi keçirildikdən sonra Ç.Qurbanov fevralın 6-da doğulduğu Qusar rayonunda dəfn edilib.

Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə və döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi igidliyə görə əsgər Çingiz Qurbanova ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adının verilməsi barədə Sərəncam imzalayıb. Onun adı Qusar şəhərində bir küçəyə və Həzrə kəndində vaxtilə təhsil aldığı tam orta məktəbə verilib.

Şəhidin məzarı önündə çıxış edənlər Milli Qəhrəmanın qısa, lakin şərəfli ömür yoluna nəzər salıb, 44 günlük Vətən müharibəsində şəhidlərimizin qisasının alındığını qeyd ediblər. Bildirilib ki, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı ordumuz torpaqlarımızı işğaldan azad edərək, tarixi Qələbə qazanıblar.

**AZƏRTAC**

# Xəbərlər: hadisələr, faktlar

### İndoneziyada Semeru vulkanı püskürüb, 500-dən çox insan evlərini tərk edib



İndoneziyanın Yava adasının şərqində yerləşən Semeru vulkanı püskürüb, kül sütunu təxminən 2 min metr hündürlüyə qalxıb.

Püskürmə 16 dəqiqə 40 saniyə davam edib. Vulkan nəticəsində üç nəfər yaralanıb, 500-dən çox insan evlərini tərk edib.

İndoneziya Vulkanologiya və Geoloji Təhlükələrin Azaldılması Mərkəzi təxliyə edilənlərin ehtiyaclarını ödəmək üçün çoxlu yardım paketlərinin çatdırıldığını bildirib.

### Pakistanda polis qərargahına hücum olub, 3 nəfər həlak olub



Pakistanın Peşəvər şəhərində federal polisin mənzil-qərargahına hücum nəticəsində hüquq-mühafizə orqanlarının üç əməkdaşı həlak olub.

"Samaa" telekanalının məlumatına görə, hadisə nəticəsində, həmçinin üç polis və bir mülki şəxs yaralanıb. Hadisə yerli vaxtla səhər saat 8:11-də baş verib. Hücum edənlərdən biri binanın qapısı qarşısında özünü partladıb, digəri isə hüquq-mühafizə orqanları tərəfindən öldürülüb.

Bəzi mənbələr hücumda üç silahlının iştirak etdiyini və onların hamısının öldürüldüyünü bildiriblər.

### Malayziyada daşqınlar zamanı təxliyə edilənlərin sayı 18 mini keçib



Malayziyada daşqınlar zamanı təxliyə edilənlərin sayı 18 mini keçib.

Daşqınlardan xilas edilən 9 min 700-dən çox insan 40 xilasetmə mərkəzində yerləşdirilib.

Hökumət musson zamanı şiddətli daşqınlardan zərər çəkmiş əyalətlərə bir çox agentliklərdən 100 mindən çox şəxsi nümayəndə və əmlak göndərib.

Baş nazir Ənvər İbrahim mətbuat brifinqində Milli Fəlakətlərin İdarə Edilməsi Agentliyinin daşqınla bağlı vəziyyətə cavab vermək üçün hazırlıq səviyyəsindən razı olduğunu və bütün qurumlara zərər çəkmiş icmalara kömək üçün maksimum səyləri səfərbər etməyi tapşırdığını bildirib.

Meteorologiya idarəsi aramsız yağışlar və güclü küləklə bağlı yenidən əhaliyə xəbərdarlıq edib.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Cüdo üzrə Azərbaycan çempionatının vaxtı açıqlanıb




Qadınlar və kişilər arasında cüdo üzrə Azərbaycan çempionatı keçiriləcək.

Bakı İdman Sarayında baş tutacaq ilin vacib yerli turnirində ölkənin ən güclü idmançıları ümumilikdə 14 çəki dərəcəsində mübarizə aparacaqlar.

Dekabrın 5-6-da fərdi mübarizələr, 7-də isə komandalararası yarış olacaq.

### Azərbaycan boksçusu Avropa çempionatının yarımfinalına vəsiqə qazanıb



Azərbaycan boksçusu Tağı Nəsibov Macarıstanın paytaxtı Budapeştdə keçirilən U-23 Avropa çempionatında yarımfinala yüksəlib.

60 kiloqram çəkidə mübarizə aparan milli üzvü 1/4 finalda Qavin Ryandan (İrlandiya) güclü olub.

O, rəqibini 3:2 (28:29, 27:30, 30:27, 30:27, 30:27) hesabı ilə məğlub edib. Nəsibov yarımfinala vəsiqə qazanmaqla ən azı bürünc medalı təmin edib.

Tağı noyabrın 28-də yarımfinalda bolqarıstanlı Radoslav Rosenovla döyüşəcək.

### Azərbaycan millisi dünya çempionatına 6 karateçi ilə yollanıb



Misirin paytaxtı Qahirədə təşkil olunacaq dünya çempionatında iştirak edəcək Azərbaycan karateçiləri bəlli olub.

Mundialda ölkəmizi 6 idmançı lisenziya əsasında təmsil edəcək.

Kişilərin mübarizəsində Nuran Rzazadə (67 kiloqram), Turqut Həsənov (84 kiloqram), Asiman Qurbanlı (+84 kiloqram), qadınlar arasında isə Mədinə Sadıqova (55 kiloqram) və İrina Zaretska (68 kiloqram) güclərini yoxlayacaq. Kata yarışında isə Roman Heydərov mübarizə aparacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Aslanov Kənan Habil oğluna verilmiş MV № 122393 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 792
Nüsxə 3665